əs

w w w . s e s q a z e t i . a z

facebook Ses Media Holding



# Suraxanıda “Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir” mövzusunda tədbir keçirilib

Dünən Suraxanı rayon hakimiyyətinin, Azərbaycan Respublikası Prezidenti Yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə 270 saylı tam orta məktəbdə “Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan dövlətçilik tarixinin parlaq səhifəsidir” mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Rəşid Məmmədov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci il Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin ölkəmizdə qeyd olunması azərbaycançılıq təfəkkürünün möhkəmlənməsinə və zənginləşdirilməsinə, həmçinin, gələcək nəsillərin müstəqil dövlətçilik ideyaları əsasında tərbiyə olunmasına xidmət edir.

Məruzə ilə çıxış edən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin əməkdaşı Samir Mirzəyev 100 il bundan öncə, qısa və cəmi 23 ay ömür yaşamış Şərqin ilk Demokratik Respublikasının tarixi, onun fəaliyyəti haqqında ətraflı məlumat verib. Məruzəçi qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə, respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır. O bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, onların diplomatik fəaliyyəti, Cümhuriyyət dövründə parlamentin formalaşması və qısa müddət ərzində qəbul etdiyi qanunlar, elm və təhsil, siyasi partiyalar və dövlət quruculuğunda onların rolu, dövlət-din münasibətləri və s. sahələrdə fəaliyyəti barədə ətraflı məlumat verib. Daha sonra tədbirdə 270 saylı tam orta məktəbin direktoru Əli İsgəndərov çıxış edib.

Zümrüd